**Müraciətçilər tərəfindən tipik səhvlərin qarşısını almaq üçün**
**TÖVSİYƏLƏR**

**(Tövisyələr digər AB və CBC proqramlarının təcrübəsi əsasında tərtib olunublar)**

Ərizə formasını doldurmaqdan əvvəl bu tövsiyələri diqqətlə oxumağınızı xahiş edirik. İdarəedici (Müqavilə) Qurum və kənar ekspertlər ərizənizi iki istiqamət üzrə qiymətləndirəcəklər: i) inzibati və uyğunluq yoxlaması, və ii) ərizənin keyfiyyətinin qiymətləndirilməsi.

!! Qiymətləndirmə prosesinin istənilən mərhələsində ərizənin (ərizəçinin, tərəfdaşın və ya fəaliyyətin) hər hansı komponenti qaydalarda təsbit olunmuş meyarlara uyğun gəlmədiyi təqdirdə, layihə həmin bir səbəb əsasında rədd edilə bilər.

**MƏRHƏLƏ 1 və ya İNZİBATİ və UYĞUNLUQ yoxlamasını** keçmək üçün aşağıda sadalanan bütün **İNZİBATİ** tələblərin gözlənilməsini təmin edin:

1. Düzgün qrant ərizə forması istifadə olunub
2. Ərizəçi tərəfindən bəyannamə doldurulub
3. Təklifin mətnini ingilis dilində yazıb və yaxud ingilis dilinə tərcümə edib.
4. Sənədlərin əsli və tələb olunan sayda foto-surəti əlavə edilib
5. Ərizənin kağız versiyası ilə eyni olan (CD-yə yazılmış) elektron sürəti də bir vahid qovluqda təmin olunub.
6. Hər bir birgə ərizəçinin mandatı/tərəfdaşlıq formatı ərizədə bütövlüklə yazılmış, sənədlər imzalanmış və möhürlənmiş şəkildə ərizə paketində təmin olunan müvafiq formada təqdim olunub.
7. Tələb olunan formatda büdcə əlavə edilib və avro (€) ilə təqdim olunub. Büdcə hesablamalarının dəqiq olmasını yoxlayın (səhvlərin qarşısını almaq üçün Excel proqramında təqdim olunan büdcə sənədindəki düstürlardan istifadə edin). Bütün rəqəmlərin yazılmasında vergüldən sonra iki rəqəm saxlayın (məs.: 580,97). Büdcədə qeyri-münasib/uyğun olmayan xərclər əks olunmamalıdırlar.
8. Tələb olunan formatda bütövlüklə doldurulan məntiqi çərçivə əlavə olunub.

Bundan əlavə, əmin olun, ki:

- Ərizə son tarixə gədər təqdim olunub
- Yoxlama siyahısındakı (*Check list*) bütün meyarlara riayət olunur
- Ərizədəki bəndlərin ardıcıllığı pozulmayıb
- Ərizə formasının bütün bölmələri doldurulub
- Bütün sənədlər bir zərfə qoyulub - ayrı zərflərdə göndərilən əlavə sənədlər başqa sıra nömrəsi altında fərqli təklif kimi qeydə alınacaq.
- Ərizə poçtla göndərildiyi təqdirlə zərfin üzərindəki məlumat təlimatda göstərilmiş şəkildə və tam dəqiqliklə doldurulub.
- Təklif, qoşmalar və/və ya digər sənədlər səlahiyyətli şəxs tərəfindən imzalanıb və möhürlənib. Faksla göndərilmiş ərizələr qəbul edirmir!
- Ərizə formasında Əsas Tərəfdaşın əlaqə məlumatları dəqiqdir (məs.: ünvanı, e-poçtı və telefon nömrələri).

**UYĞUNLUQ** yoxlamasını keçmək üçün aşağıdakıları nəzərdən keçirin:

1. Ərizə forması üçün yoxlama siyahısı lazımi qaydada doldurulub.
2. Sizin təşkilat XXX bəndində təsbit olunan uyğunluq meyarlarına cavab verir.

3. Sizin tərəfdaş (tərəfdaşlar) XXX bəndində təsbit olunan uyğunluq meyarlarına cavab verir (verirlər).
4. Törəmə müəssisə (müəssisələr), olduqları təqdirdə, XXX bəndində təsbit olunan uyğunluq meyarlarına cavab verir (verirlər).
5. Aparıcı tərəfdaş və tərəfdaşlar proqramın həyata keçirildiyi ərazidə qeydiyyatdadır və həmin ərazidə yaşayırlar.
6. Təlimatlara uyğun olaraq aşağıdakı tələb olunan sənədlər təqdim edilmişdirlər:
   - Ərizəçilərin əsasnamələri
   - Ərizəçilərin və ya törəmə müəssisələrin əsasnamələri
   - Ərizəçinin xarici audit hesabatı (əgər varsa)
   - Hüquqi şəxsin sənədləri (əgər varsa) lazımi qaydada doldurulub və ərizəçilər tərəfindən imzalanıb və tələb olunan digər sənədlər əlavə edilmişdir.
   - Maliyyə səhadətnaməsi (əgər varsa).
   - Ərizəçinin son hesablarının surəti (əgər varsa).

!! Ərizəniz yalnız İNZİBATİ və UYĞUNLUQ yoxlamasını keçdikdən sonra KEYFİYYƏT QİYMƏTLƏNDİRMƏsi mərhələrinə göndəriləcək.

**MƏRHƏLƏ 2: ƏRİZƏNİN KEYFİYYƏTİNİN YOXLANILMASI**

Ərizənin, habelə təklif olunan büdcənin və ərizəçilərin və törəmə müəssisələrinin bacarıqları Təlimatlarda göstərilən qiymətləndirmə cədvəlində əks olunan qiymətləndirmə meyarlarından istifadə edərək qiymətləndiriləcək. İki növ qiymətləndirmə meyarı mövcuddur: seçim və təsdiq meyarı.

**Seçim meyarları** ərizəçi və törəmə müəssisələrin əməliyyat bacarıqlarını və ərizəçinin maliyyə imkanlarını və aşağıdakıları təmin etmək bacarıqlarını qiymətləndirməyə kömək edir:

- təklif olunan layihə üzrə fəaliyyətləri davam etdirmək üçün sabit və yetərli gədər maliyyə mənbəsinə malik olmaq və münasib olduğu təqdirdə, maliyyələşdirmədə iştirak etmək;
- təklif olunan fəaliyyəti uğurla başa çatdırmaq üçün idarəetmə potensialına, peşə bacarıqlarına və ixtisasa malik olmaq. Bu müraciət edən ərizəçilərin istənilən hər hansı törəmə müəssisələrinə də şamil olunur.

**Təsdiq meyarları** məqsəd və prioritetlərə münasibətdə ərizənin keyfiyyətini qiymətləndirməyə kömək edir. Eyni zamanda, Layihələr üzrə Elanın ümumi səmərəliliyini artırmaq üçün layihələrin təsdiq olunması prosesinə də dəstək olur. Sözü gedən meyarlar məqsəd və prioritetlərə uyğun şəkildə layihəni icra etmək qabiliyyəti olan ərizəçiləri əminliklə seçməkdə Müqavilə Qurumuna yardımçı olacaq. Onlar fəaliyyətin mütənasibliyini, habelə ərizənin Layihələr üzrə Elanın məqsədlərinə uyğunluğunu, keyfiyyətini, gözlənilən təsirini, davamlılığını və səmərəliliyini əhatə edir.

**Seçim meyarları:**

***1. Maliyyə imkanları və əməliyyat qabiliyyəti***

*1.1 Ərizəçilər və yaxud törəmə müəssisə(lər) (əgər varsa) layihə idarə olunmasında kifayət qədər təcrübəyə malikdirlərmi?*

*1.2 Ərizəçilər və yaxud törəmə müəssisə(lər) (əgər varsa) kifayət qədər texniki təcrübəyə malikdirlərmi? (əlaxsus həll olunacaq məsələlər haqqında bilikləri varmı)*

*1.3 Ərizəçilər və yaxud törəmə müəssisə(lər) (əgər varsa) layihə idarə olunmasında kifayət qədər bacarıqlara malikdirlərmi? (buraya işçi heyəti, avadanlığı və büdcəni idarə etmək kimi məsələlər daxildir)*

*1.4 Ərizəçinin sabit və kifayət edəcək qədər maliyyə mənbələri varmı?*

**!! Unutmayın:**

Ərizəçinin və münasib olduğu təqdirdə törəmə müəssisənin (müəssisələrin) bacarıqları qiymətləndirildiyi zaman aşağıdakıları yadda saxlamaq lazımdır:

- Ərizəçinin və törəmə müəssisə (müəssisələrin) layihə idarə olunmasında təcrübəsi var
- Ərizəçilər və törəmə müəssisə (müəssisələr) həll olunacaq məsələlərlə əlaqədar kifayət qədər bilik və təcrübəyə malikdirlər
- Ərizəçilər və törəmə müəssisə (müəssisələr) kifayət qədər idarəetmə qabiliyyətinə malikdirlər
- Ərizəçilər və törəmə müəssisə (müəssisələr) sabit və kifayət qədər maliyyə mənbələrinə malikdirlər

***2. Fəaliyyətin mütənasibliyi / uyğunluğu***

*2.1 Təqdim olunan ərizə Layihələr üzrə Elanın məqsəd və prioritetlərinə nə dərəcədə uyğundur?*

*2.3 Ərizə müvafiq hədəf ölkənin (ölkələrin) və ya regionun (regionların) xüsusi ehtiyac və çətinliklərinə nə dərəcədə mütənasibdir? (Digər AB təşəbbüsləri ilə sinerjini və təkrarlamanın aradan qaldırılmasını nəzərə almaqla).*

*2.3 Seçilən tərəflər nə dərəcədə dəqiq müəyyən olunub və strateji baxımdan düzgün seçiliblər (son benefisiarlar, hədəf qrupları)? Onların ehtiyacları aydın müəyyən edilibmi və təklif müvafiq bu ehtiyacları qarşılayırmı?*

*2.4 Təqdim olunan layihə transsərhəd mahiyyətə malikdirmi? (yəni ki, aşağıdakı meyarlardan ən azı ikisinə cavab verirmi: (1) birgə inkişaf, (2) birgə həyata keçirilmə, (3) birgə heyət təminatı, (4) birgə maliyyələşdirmə)*

**Tipik səhvlər:**

- Layihə seçilmiş məqsəd və prioritet (prioritetlərə) uyğun deyil. Fəaliyyət məqsədləri Proqramın məqsədi və prioritetində (prioritetlərində) təsbit olunan məqsədlərinə uyğun deyil.
- Layihə və təklif olunan fəaliyyətlərin həcmi təsvir olunan problemlərə uyğun deyil. Layihə dəstək göstəriləcək ərazilərdəki mövcud problemlərə və bu sahədə hədəf qruplarının ehtiyaclarına cavab vermir.
- Layihədə təsvir olunan problem (problemlər) mövcuddur, lakin müvafiq tədqiqat/təhlil hesabatlar ilə dəstəklənmir və yaxud həmin ərazinin statistik məlumatlarında əksini tapmır;
- Hədəf qrupların və son benefisiarların ehtiyacları real deyil və yaxşı təsvir edilməyib, və onların vəziyyəti/problemləri üzrə həllərin tapılmasına layihənin verə biləcəyi töhfə ətraflı izah olunmayıb.
- Layihənin transsərhəd təsiri güclü olmalıdır - bu hər bir layihənin qiymətləndirilməsi zamanı qrantın ayrılması üzrə yekun qərarı verməyə təsir edən mühüm elementidir.

**Təsdiq meyarları**

**3. Fəaliyyətin səmərəliliyi və texniki-iqtisadi əsaslandırılması**

3.1 Təkilif olunan fəaliyyətlər məqsədlər və gözlənilən nəticələrə müvaifq şəkildə uyğun, praktiki və ardıcıldırmı?

3.2 Fəaliyyət planı aydın və həyata keçirilmək üçün mümkündür?

3.3 Təklifdə əks olunan fəaliyyət nəticəsini obyektiv yoxlamaq üçün ölçüləbilən göstəricilər varmı? Hər hansı bir qiymətləndirmə planlaşdırılırmı?

3.4 Birgə ərizəçi (ərizəçilərin) və törəmə müəssisə (müəssisələrin) fəaliyyətlərə töhfəsi və iştirakı qənaətbəxşdirmi?

**Tipik səhvlər:**

- Fəaliyyətlər gözləntilər və nəticələr ilə uyğun deyil
- Nəticələr məqsədlərə çatılmasını sübut etmir
- Fəaliyyət planını icra etmək mümkün deyil (məsələn, bütün tədbirlər eyni zamanda planlaşdırılıb və tender prosedurları üçün vaxt qalmır).
- Layihənin idarəetmə quruluşu təsvir olunmayıb, monitorinq sistemi və qiymətləndirmə fəaliyyəti haqqında məlumat təqdim edilməyib.
- İndikatorlar (göstəricilər) dəqiq müəyyən edilməyiblər / ölçülməyiblər
- Fəaliyyət planı aydın və fəaliyyətlərə uyğun deyil
- Təklif olunan göstəricilər mümkün deyil
- Güclü tərəfdaşlığı təsdiq edən amillər yoxdur, çün ki, aşağıdakı halların aydın sübutları müşahidə olunmur:
  - layihənin birgə hazırlanması - əslində, tərəfdaşlar layihənin ilkin mərhələsindən, layihənin mövzusu yarandığı andan etibarən əməkdaşlıq etməlidirlər.
  - layihə birgə həyata keçiriləcək - layihə çərçivəsində planlaşdırılan fəaliyyətlər tərəfdaşları arasında əməkdaşlıq şəraitində həyata keçirilməlidir, vəzifə bölgüsü tarazlı olmalıdır;
  - layihənin birgə işçi heyəti mövcuddur - lazımsız təkrarlanma olmadan hər bir tərəfdaşın mütəxəssislərs layihənin icrası zamanı əməkdaşlıq etməlidirlər;
  - layihə birgə maliyyələşdirilir - tərəfdaşlar arasında xərclərin və öz maliyyə ianələrinin balanslaşdırılmış bölgüsü.

**4. Fəaliyyətin dayanıqlığı**

*4.1 Nəzərdə tutulan fəaliyyətin hədəf qruplarına əhəmiyyətli təsir ehtimalı varmı?*

*4.2 Təklifin daha geniş yayılma ehtimalı varmı? (Təkrarlanma, genişlənmə və məlumat mübadiləsi kimi ehtimallar nəzərdə tutulur)*

*4.3 Təklif olunan fəaliyyətin gözlənilən nəticələri dayanıqli olacaqmı:*

*- Maliyyə baxımından? (maliyyələşdirmə başa çatdıqdan sonra fəaliyyətləri kimi maliyyələşdiriləcək?)*

*- Institusional baxımından? (fəaliyyətlərə imkan verən strukturlar fəaliyyətlərin sonunda öz yerində qalacaqlarmı? Layihənin nəticələrinə ölkə sahib duracaqmı?)*

*- Siyasət səviyyəsində? (uyğun olduğu təqdirdə) (fəaliyyətin struktur təsiri nə olacaq - məsələn, qanunvericiliyin, davranış məcəlləsinin, metodların və s. təkmilləşdirilməsinə səbəb olacaq)*

*- Ekoloji baxımından? (uyğun olduğu təqdirdə) (fəaliyyət ətraf mühitə mənfi / müsbət təsir göstərəcək?)*

**Tipik səhvlər:**

- Layihənin hədəf qruplarına təsiri və kommunikasiya strategiyası aydın şəkildə müəyyən edilməyib
- Təklif olunan layihə çərçivəsində transsərhəd əməkdaşlıq müvafiq problemin həllinə kömək etmir - problem transsərhəd mahiyyətli olmalı və vəziyyət yerli səviyyədə hər bir tərəfdaş tərəfindən ayrı-ayrılıqda həll oluna bilməz
- Məhdud inkişaf və genişlənmə potensialı
- Gözlənilən nəticələrin dayanıqlığı yetərli gədər əsaslandırılmayıb

**5. Büdcə və fəaliyyət səmərəliliyi**

*5.1 Nəzərdə tutulan fəaliyyət büdcəsində müvafiq şəkildə öz əksini tapıbmı?*

*5.2 Hesablanmış xərclər və gözlənilən nəticələr arasında nisbət qənaətbəxşdirmi?*

**Tipik səhvlər:**
- *Bəzi fəaliyyətlər büdcəsinə əks olunmamış və ya onları müəyyən etmək çətindir*
- *Büdcə sütunlarındakı rəqəmlər arasında uyğunsuzluqlar.*
- *Hesablanmış xərclər və gözlənilən nəticələr arasında nisbət qənaətbəxş deyil*
- *Büdcə real deyil - gözlənilən nəticələr üzrə çox yüksək / aşağı xərclər nəzərdə tutulub*
- *Lazımsız / qeyri-münasib xərclər daxil edilib*
- *Daxil edilən xərclər / dərəcələr regional səviyyədə mövcud qiymətləri əks etdirmir*
- *Büdcə qeyri-şəffafdır (müvafiq əsaslandırma yoxdur)*

## MƏRHƏLƏ 3: ƏRİZƏÇİNİN VƏ TƏRƏFDAŞIN UYĞUNLUĞUNUN YOXLANILMASI

Avropa Komissiyası tərəfindən tələb olunan sənədlər əsasında uyğunluğun yoxlanılması yalnız topladığı xallara və mövcud maliyyə zərfinə uyğun olaraq daha öncə seçilmiş ərizələr/təkliflər üzrə aparılacaq.

- Ərizəçinin bəyannaməsi ərizəçi tərəfindən təmin edilən sənədlər ilə qarşılıqlı yoxlanılacaq. Hər hansı bir çatışmayan sənəd və ya ərizəçinin bəyannaməsi ilə təqdim etdiyi sənədlər arasında hər hansı bir uyğunsuzluq ərizənin rədd edilməsinə səbəb ola bilər.
- İddiaçının, tərəfdaşların, və fəaliyyətin uyğunluğu qaydalarda müəyyən olunan meyarlara əsasən yoxlanılacaq. Bu təhlilin nəticəsində ehtiyac yarandığı təqdirdə rədd edilən təklifin əvəzinə ərizələr siyahısında mövcud maliyyə zərfinə uyğun olan ən yaxşı təklif seçiləcək və sonra bu layihənin ərizəçisinin və tərəfdaşlarının uyğunluğu qiymətləndiriləcək.

Ərizəçilərin buraxdığı tipik səhvlər haqqında daha geniş məlumat almaq istəyirsinizsə Prof. Dr. Stiv Kuarrinin 8 noyabr 2011-ci il tarixli mükəmməllik haqqında mühazirəsini dinləyin.
http://www.youtube.com/watch?v=6n6V-Utoa1E

**Aİ-nın tərcümə və tərtib etmə üçün istinad mənbəyi**
http://ec.europa.eu/translation/index_en.htm